30 iyul 2021-ci il
№28 (8936)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

# "ZƏFƏR" düşərgəsi



## Quba STEAM Mərkəzində ŞƏHİD övladları üçün təşkil edilən "ZƏFƏR" düşərgəsində bir gün

**İyulun 25-dən ölkəmizdə fərqli və maraqlı layihəyə start verilib. Vətən müharibəsində qazanılan zəfərdə payı olan şəhidlərin yadigar qoyduğu övladları üçün Qubada maraqlı, rəngarəng, əyləncəli yay tətili təşkil edilib. 71 şəhid balası üçün düşərgə salınıb, adına da "Zəfər" düşərgəsi deyiblər.**

⇨Ardı səh.4

# 500-ə yaxın şəxs işlə təmin olunub

**Şəhid və qazi ailəsi üzvlərinin sosial müdafiəsinin, məşğulluğunun təmin edilməsi məqsədilə cari ilin 28 yanvar tarixindən etibarən Təhsil Nazirliyinə tabe olan qurumlar, təhsil müəssisələrində 69 vəzifə üzrə vakansiyalara həmin kateqoriyadan olan şəxslərə üstünlük verilməsi üçün tədbirlər həyata keçirilib.**

Yanvarın 28-dən iyulun 8-dək şəhid, qazi və Vətən müharibəsi iştirakçılarının ailə üzvləri tərəfindən işə qəbulla əlaqədar müraciətlər araşdırıldıqdan və vakant yerlərlə bağlı həmin şəxslərlə əlaqə saxlanılaraq rəylər alındıqdan sonra 480 şəxs işlə təmin olunub.

İyulun 8-dən etibarən Təhsil Nazirliyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən start verilən "Məşğulluq marafonu"na qoşulub. "Qəhrəmanlarımızın məşğulluğuna birgə dəstək olaq!" devizi altında keçirilən marafon çərçivəsində Təhsil Nazirliyi tərəfindən mövcud olan və ya yeni yaradılan vakansiyalar barədə məlumatlar müvafiq elektron platformaya mütəmadi olaraq daxil edilməkdədir. İyulun 8-dən 27-dək nazirlik tərəfindən 230 vakansiya müvafiq elektron platformaya daxil edilib və 21 nəfər işlə təmin olunub. Həmin vakansiyalar Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, müharibədə yaralanmış qazilərin məşğulluğunun təmin olunması üçün nəzərdə tutulub.




**Məktəblilərimiz növbəti uğura imza atıblar**

⇨səh.2




**Hədəfə doğru...**

⇨səh.6



**Birincilərin birincisi**

⇨səh.8

# Daşkəsən şəhərində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Daşkəsən şəhərində 360 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məktəb binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 23 iyul 2021-ci il*



# Məktəblilərimiz növbəti uğura imza atıblar

## Beynəlxalq Biologiya Olimpiadasında




18-23 iyul 2021-ci il tarixlərində Portuqaliya tərəfindən onlayn şəkildə 32-ci Beynəlxalq Biologiya Olimpiadası ( IBO2021) təşkil edilib.

76 ölkədən 296 şagirdin iştirak etdiyi elm yarışında Azərbaycanı təmsil edən 4 məktəblimiz uğurlu nəticə göstərib. Belə ki, Sumqayıt şəhəri 15 nömrəli tam orta məktəbin XI sinif şagirdi Mətin Muradlı qızıl, Bakı şəhəri 102 nömrəli tam orta məktəbin XI sinif şagirdi Ranal Qurbanov qızıl, Təhsil Nazirliyinin birbaşa tabeliyində olan Kimya-biologiya təmayüllü liseyi XI sinif şagirdi Sədiyar Qafarov və Bakı şəhəri 2 nömrəli texniki-humanitar liseyin X sinif şagirdi Aytac Vəliyeva bürünc medala layiq görülüb.

Qalib olan şagirdlər Təhsil Nazirliyi tərəfindən yaradılmış beynəlxalq olimpiadalara hazırlıq mərkəzinin dinləyiciləridir.

## Beynəlxalq Fizika Olimpiadasında




17-24 iyul 2021-ci il tarixlərində Litvada Beynəlxalq Fizika Olimpiadası təşkil edilib.

Məktəblilərimiz olimpiadaya Təhsil Texnologiyaları Mərkəzindən virtual formada qoşulublar.

Olimpiadaya qatılan Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin XI sinif şagirdi Ayhan Süleymanzadə bürünc medala, Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın XI sinif şagirdləri Murad Bəşirov və Sirac Yəhyazadə isə "Həvəsləndirici mükafat"a layiq görülüblər.

## Beynəlxalq Riyaziyyat Olimpiadasında




14-24 iyul 2021-ci il tarixlərində Sankt-Peterburqda 62-ci Beynəlxalq Riyaziyyat Olimpiadası (IMO) keçirilib. Olimpiadada 107 ölkədən 619 şagird iştirak edib.

Məktəblilərimiz olimpiadada uğurla çıxış edərək 2 bürünc medal və 3 "Həvəsləndirici mükafat" qazanıblar. Belə ki, Təhsil Nazirliyinin birbaşa tabeliyində olan Fizika, riyaziyyat və informatika təmayüllü liseyin X sinif şagirdləri Amin Cəfərzadə və Toğrul Abbasov bürünc medala, həmin liseyin IX şagirdi Fidan Qarayeva, Bakı şəhəri 2 nömrəli texniki-humanitar liseyin X sinif şagirdi Elçin Musazadə və Bakı şəhəri 72 nömrəli tam orta məktəbin X sinif şagirdi Cavad İsmayılzadə isə "Həvəsləndirici mükafat"a layiq görülüblər.

Məktəblilərimizi təbrik edir və daha böyük uğurlar arzulayırıq.

## "Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

"Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 iyun tarixli 1367 nömrəli Fərmanının 5.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

*Bakı şəhəri, 24 iyul 2021-ci il*

## "Rəqəmsal bacarıqlar" layihəsi üzrə hesabat tədbiri

İyulun 23-də "Rəqəmsal bacarıqlar" layihəsi üzrə 2020-2021-ci tədris ilinin yekunlarına dair onlayn hesabat tədbiri keçirilib.

Tədbirdə təhsil nazirinin müavini Firudin Qurbanov, "Rəqəmsal bacarıqlar" layihəsinin rəhbəri Nilüfər Rəhimova, "Alqoritmika" şirkətinin nümayəndəsi Anna Burda, məktəb direktorları, müəllim və şagirdlər iştirak ediblər.

Tədbirin keçirilməsində məqsəd il ərzində layihə çərçivəsində həyata keçirilən fəaliyyətlər haqqında ictimaiyyətin məlumatlandırılması və layihənin növbəti tədris ilində genişləndirilməsi istiqamətində görüləcək işlərin təqdim edilməsi olub.

Tədbirdə çıxış edən nazir müavini Firudin Qurbanov layihənin əhəmiyyətindən danışıb və qeyd edib ki, layihənin əsas məqsədi təhsilalanların İKT bacarıqlarına dərindən yiyələnməsi, onların informasiya məkanında sərbəst və məqsədyönlü fəaliyyətinə nail olunması, rəqabətqabiliyyətli, məntiqi və qeyri-standart düşüncə tərzinə malik şəxslər kimi formalaşmasına şərait yaratmaqdır. Belə ki, layihə təhsilalanlara yeni texnologiya və rəqəmsal bacarıqları təcrübədə öyrənməyə, proqramlaşdırmanın sirlərinə bələd olmağa imkan verir. Onlar təkcə proqramlaşdırmanı deyil, biliyin təcrübədə tətbiqi bacarıqlarını da öyrənirlər.

Layihənin əhatə dairəsi barədə məlumat verən layihə rəhbəri Nilüfər Rəhimova bildirib ki, 2017-2018-ci tədris ilində start verilən "Rəqəmsal bacarıqlar" layihəsi ilkin olaraq Bakı şəhərində 45 məktəbdə V siniflər üzrə 65 min şagirdi əhatə edib. Cari tədris ilində isə layihənin uğurlu tətbiqi nəticəsində ölkənin 9 şəhər və rayonu üzrə 222 məktəb və 120 minədək Azərbaycan və rus bölmələrinin şagirdləri əhatə olunub.

Qeyd olunub ki, növbəti tədris ilində mövcud məktəblərdə siniflərin sayının artırılması, həmçinin, yeni şəhər və rayonlar üzrə məktəblərin layihəyə qoşulması planlaşdırılır. Mövcud planlaşdırmaya əsasən, 2021-2022-ci tədris ilində layihə Bakı, Sumqayıt, Gəncə, Şəki, Şirvan, Şamaxı, Lənkəran, Biləsuvar, Mingəçevir, Xaçmaz, Yevlax, Sabirabad, Salyan, Şəmkir, Göyçay və Şabran şəhər və rayonları üzrə 250 məktəbdə tədris alan 190 minədək şagirdi əhatə edəcək.

Daha sonra tədris ili ərzində layihə çərçivəsində görülən işlər barədə videoçarx izlənilib. Həmçinin, direktor, müəllim və şagirdlər öz təcrübələrini bölüşüblər.

Sonda layihə çərçivəsində səmərəli və uğurlu fəaliyyət göstərdiklərinə görə məktəb və müəllimlər sertifikatlarla təltif olunublar.

# Təhsil nazirinin videoqəbulu keçirilib




İyulun 23-də təhsil naziri Emin Əmrullayev Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən və Xızı rayon sakinlərini videobağlantı vasitəsilə qəbul edib. Qəbulda həmin bölgələrdə müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Təhsil naziri vətəndaşların müraciət, şikayət və təkliflərini diqqətlə dinləyərək hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

Videoqəbulda vətəndaşlar müəllimlərin işə qəbulu və digər məsələlərlə bağlı müraciətlər ediblər.

Qeyd edək ki, videoqəbulun təşkil edilməsində əsas məqsəd vətəndaşların Təhsil Nazirliyinə müraciət imkanlarını müasir texnologiyalardan istifadə etməklə genişləndirmək, regionlarda yaşayanlara nazirliyin inzibati binasına gəlmədən vəzifəli şəxslərlə videobağlantı vasitəsilə birbaşa əlaqə imkanının yaradılmasıdır.

# Yüksək nəticə göstərən idmançılarla görüş



İyulun 27-də Təhsil Nazirliyinin nəzdində fəaliyyət göstərən uşaq-gənclər idman-şahmat məktəblərinin yetirmələri olan - Avropa və dünya səviyyəli yarışlarda uğurlu nəticə göstərən idmançılarla görüş keçirilib.

Görüşdə çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov ölkəmizdə idmana olan dövlət qayğısından, bu sahədə həyata keçirilən tədbirlərdən, idman və bədən tərbiyəsinin inkişafı, kütləviliyin təmin edilməsi məqsədilə görülən işlərdən danışıb. Təhsilin keyfiyyətinin yüksəldilməsi, bu sahədə uğurlu nəticələrin əldə olunmasında təhsilalanların fiziki sağlam, psixoloji dayanıqlı olmalarının əhəmiyyətini vurğulayan Firudin Qurbanov idmançıları əldə etdikləri nailiyyətlər münasibətilə təbrik edib və uğurlarının davamlı olacağına əminliyini bildirib.

Daha sonra çıxış edən 13 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin yetirməsi, Avropa Kubokunun qalibi Turan Bayramov görüşün təşkilinə görə təşəkkür edib.

Görüşdə qalib idmançılara Təhsil Nazirliyi tərəfindən hədiyyələr təqdim edilib.

Sonda xatirə fotosu çəkdirilib.

# "İbtidai təhsil - inkişaf perspektivləri"

Təhsil Nazirliyi və Təhsil İnstitutunun təşkilatçılığı ilə ölkənin müxtəlif ümumi təhsil müəssisələrində çalışan ibtidai sinif müəllimləri ilə "İbtidai təhsil - inkişaf perspektivləri" mövzusunda "dəyirmi masa" keçirilib.

"Dəyirmi masa"nın keçirilməsində məqsəd ümumi təhsil pilləsinin ibtidai təhsil səviyyəsi üzrə bir sıra məsələlərlə bağlı təhsilverənlərin təkliflərini dinləmək, yeniliklərə dair müzakirələr aparmaq olub. Tədbirdə ümumi təhsil müəssisələrində təlim, öyrədici mühit, qiymətləndirmə praktikası və mövcud problemlər, diferensiasiya, müəllim əməkdaşlığının öyrətməyə təsiri, eləcə də dərsliklərə dair məsləhətləşmələr aparılıb.

Təhsil Nazirliyinin rəhbər şəxslərinin iştirakı ilə keçirilmiş müzakirələrdə dövlət və özəl ümumi təhsil müəssisələrinin təcrübəsi, paytaxt və bölgə müəllimlərinin mövcud öyrətmə problemləri də nəzərdən keçirilib.

# "ZƏFƏR" düşərgəsi

⇦ Əvvəli səh.1

Müxtəlif yaş qrupunda olan 71 uşaq 8-9 və 10 nəfərlik qruplarda birləşib. Düşərgə 2 alt qrupa bölünüb. Birinci və ikinci alt düşərgələrin hər birində 4 kiçik qrup fəaliyyət göstərir. Hər qrupda rəhbər və onun köməkçiləri uşaqlarla iş qurur.

### STEAM dərsləri

Proqramın əsas hissəsi STEAM təlimləri üzərində qurulub. Uşaqlar 3D dizaynı tərtib edir, layihələrini 3D printerlərdə çap edir, kiçik mühəndislər olaraq layihələr işləyib hazırlayırlar. Mikrobitdə kodlaşdırma və alqoritmlər üzərindən əmrlər verir, onu praktiki olaraq reallaşdırırlar.

### Fəaliyyətlərdə öyrənmə istiqaməti

Hər gün 8 əsas mövzu üzrə hər biri 90 dəqiqəlik təlimlər keçirilir. 3D dizayn, mikrobit, kodlaşdırma, həmçinin kapoero, dağçılıq, aykido, xilasedicilik, ilk tibbi yardım, kinoloq və çölçülük üzrə təlimlərə qatılan uşaqlar həyati bilik və bacarıqları əldə edirlər. Edərək öyrənmək prinsipi ilə qurulan bu təlimlərə məktəblilər böyük maraq göstərirlər.

### Düşərgədə axşam əyləncəsi

Hər gün Təhsil Nazirliyinin Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsinin əməkdaşlarının iştirakı ilə uşaqların axşam proqramı hazırlanır. Rəqs, musiqi, şən və hazırcavablar klubu qurulur, axşam əyləncəsi başlayır.

### "İşimizi sorğu əsasında qurduq"

Uşaqların buradakı günü xüsusi təhlilə əsaslanaraq planlaşdırılıb. Düşərgə rəhbəri Hüseyn Hüseynovun sözlərinə görə, düşərgə fəaliyyətə başlamadan öncə sorğu keçirilib: "İşimizi həmin sorğu əsasında qurduq. Düşərgə başa çatdıqdan sonra yenidən sorğu keçirəcək, nəticələri təhlil ediləcək".








Hüseyn Hüseynov



Ruslan Həsənov



Səlmi Vəliyeva



Süleyman Musayev



Aysun Ağazadə

Hüseyn Hüseynov düşərgədə fəaliyyət göstərən hər əməkdaşın xüsusi seçildiyini, proqramların təhlil və araşdırmalara əsaslanaraq hazırlandığını vurğulayıb: "Düşərgənin fəaliyyətini planlaşdırmaq üçün ikigünlük hazırlıq görüşü keçirdik. Görüşün nəticəsindən asılı olaraq, uşaqların vaxtının səmərəli təşkil edilməsi, düşərgənin düzgün idarə olunmasını təmin etmək məqsədi ilə simulyativ seminar keçirildi. 7 gün ərzində uşaqlarla işləyəcək 32 nəfərdən ibarət təlimçi heyət yaradıldı. Təlimçilər bir ay əvvəldən müəyyən edilib, onların proqram və metodları razılaşdırılmışdı".

49 nəfər işçi heyət - düşərgə rəhbəri, alt-düşərgə rəhbərləri, qrup rəhbərləri, proqram rəhbəri, könüllülər, psixoloqlar, çəkiliş qrupu, polis, həkim və əlavə olaraq 31 nəfər təlimçi uşaqların günlərinin maraqlı keçməsi üçün əlindən gələni edib: "Təyin edilən hər proqramda intellektual, psixoloji, fiziki, emosional məqamlar nəzərə alınıb, maraqlı əyləncəli öyrədici proqram hazırlanmasına çalışılıb".

Hüseyn Hüseynov deyib ki, şəhid övladları çox həssas qrup olduğundan onlarla işə xüsusi önəm verirlər: "Onların dəstəyə ehtiyacı yaranır. Düşərgədə dincələn 71 uşaqla 2 psixoloq qrupu işləyir. Psixoloqlar həm fərdi söhbətlər aparır, həm də qrup görüşləri keçirir".

### "Nəticə ürəyimizcədir"

Beləliklə, aralarında beynəlxalq səviyyəli təlimçilərin də olduğu heyət uşaqların sevgisini qazanıb. Uşaqların sevimli təlimçilərindən biri Ebru sənəti üzrə təlimçi, Mübariz İbrahimov adına liseyin baş müəllimi Ruslan Həsənov olub. Təlimçi uşaqların Ebru sənətinə xüsusilə maraq göstərdyini deyir. Bu sənətə qarşı uşaqlarda maraq yaratmaq elə də çətin olmayıb: "Düşərgə iştirakçılarına Ebru sənətinin vətənlərindən birinin də məhz bizim ölkəmiz olduğunu dedim. Tarixi mənbələrdə bu barədə kifayət qədər məlumat verilib. Qədim sənətlərimizdən biri olması faktı uşaqların diqqətini daha çox cəlb etdi".

Beləcə, Ruslan müəllimin bələdçiliyi ilə uşaqlar təxəyyülündə canlandırdığı dünyanı rənglərdən uğurla istifadə edərək su üzünə çıxardıblar. Əldə etdikləri nəticədən özləri də heyrətləniblər: "Bunu uşaqlar özləri də gözləmirdilər. Hətta işləyə biləcəklərinə şübhə ilə yanaşırdılar. Ancaq sonradan sənətə də, öz bacarıqlarına da münasibətləri dəyişdi. Ebru sənətinin texnologiyasını belə uşaqlara oyunlar və başqa yollarla öyrədə bildik. Uşaqlar Ebru suyunun kitrədən necə hazırlanması, rənglərin öd ilə emal olunması, fırçaların texnologiyasına qədər hər şeylə maraqlandılar.Təlim nəticəsində bu sənətə aid bir çox məlumat öyrəndilər, çox gözəl işlər ortaya çıxartdılar və həmin işlər şagirdlərimizə hədiyyə edildi".

Ruslan müəllim deyir burada olmaq nəinki uşaqlar, elə təlimçilər üçün də maraqlı təcrübə olub: "Ebru sənəti üzrə təlim keçməyə dəvət alanda çox qürurlandım və həvəslə bu dəvətə müsbət cavab verdim. Təlimlər uşaqlarda yaradıcı qabiliyyətlərinin, incəsənətin ayrı-ayrı sahələri üzrə bacarıqlarının üzə çıxarılmasına xidmət edir. Əldə etdiyimiz nəticə ürəyimizcədir".

### "Uşaqların vaxtı çox maraqlı keçir"

Səlmi Vəliyeva 8 şagirddən ibarət qrupun rəhbəridir: "İlk gün bir az darıxdılar, adaptasiya oluna bilmədilər. Ayrı-ayrı ailədə böyüyən uşaqlar üçün ailəsindən uzaqda keçirdiyi ilk gün asan olmadı. İkinci gündən isə artıq hər şey qaydasına düşdü. Çox maraqlı fəaliyyətlərimiz var. Fəaliyyətlərdən əlavə maraqlı praktiki məşğələlər, əyləncəli oyunlar keçirir, uşaqların vaxtının səmərəli keçməsini təmin edirik. Müşahidələrimə görə, uşaqların vaxtı burada çox maraqlı keçir. Əminəm ki, düşərgədən ayrıldıqdan sonra da biri-biriləri üçün darıxacaq, buradakı günləri həyatlarının ən maraqlı günləri olaraq ömürlük xatırlayacaqlar".

### Qubaya ekskursiya

Uşaqlar günlərini, sadəcə düşərgədə keçirməyiblər. Onlar düşərgənin yerləşdiyi Quba rayonunun görməli yerlərinə də baş çəkiblər. Uşaqların günlərinin biri-birindən fərqlənməsi, rəngarəngliyinin təmin edilməsi məqsədilə Quba rayonu ərazisində yerləşən tarixi yerlərə ekskursiyalar təşkil edilib. Məsələn, Quba rayon Tarix Diyarşünaslıq Muzeyinə gedib, "Soyqırım" memorial kompleksini ziyarət edib, şəhər gəzintilərində olublar.

### Düşərgənin qonaqları

Düşərgənin hər gün qonağı olur. Müxtəlif sahələrin nüfuzlu, tanınan nümayəndələri düşərgəyə baş çəkir, uşaqlarla görüşür. Müğənni Tünzalə Ağayeva, Vətən müharibəsi iştirakçısı, topçu Vüsal Məmmədovla görüş uşaqlar üçün çox maraqlı olub. Təhsil naziri Emin Əmrullayev də düşərgənin ən çox gözlənən, gəlişi maraqla qarşılanan qonaqlarından idi. Təhsil naziri düşərgədə uşaqların birgünlük fəaliyyəti ilə tanışlıqdan sonra onlarla yaxından ünsiyyətdə olub.

Düşərgədə olan hər qonaq uşaqların düşərgə xatirələrini zənginləşdirməklə yanaşı, həm də yeni mühitə adaptasiyalarını sürətləndirib. Hər görüş uşaqların xatirəsində iz qoyub.

### Onlar bu istirahətdən razı qalıb

Quba STEAM Mərkəzində salınan düşərgə artıq yekunlaşmaq üzrədir. Uşaqlar Təhsil Nazirliyi, Azərbaycan Gənc Müəllimlər Assosiasiyası və "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə təşkil edilən düşərgədən razı qalıbmı? Gedəndən sonra buradakı günlərini necə xatırlayacaqlar?

### "Burada imkan vermirlər ki, ürəyimiz sıxılsın"

"Zəfər" düşərgəsinin iştirakçısı Süleyman Musayev şəhid polkovnik-leytenant Sədi Musayevin oğludur. O, düşərgədəki günlərindən belə danışır: "Düşərgədə günə himnimizi oxuyaraq başlayırıq. Qubada çox gözəl hava var. Səhər duranda təmiz havanı içimizə çəkir, bu havadan zövq alırıq. Qrup rəhbərlərimiz bizim çox əyləncəli, rəngarəng vaxt keçirməyimiz üçün əllərindən gələni edirlər. Burada imkan vermirlər ki, bizim ürəyimiz sıxılsın".

Burda olduğu müddətdə Süleymanın dostlarının da sayı artıb: "Düşərgədə mənimlə birgə dincələn 70 nəfərin hər biri ilə yaxşı münasibət qurdum. Aralarında dostlaşdıqlarım da çoxdur. Düşünürəm ki, onlarla dostluğum biz böyüyəndən sonra da davam edəcək".

Böyüyəndən sonrakı dönəm üçün, sadəcə dostluq münasibətləri yox, başqa qərarlar da verib. Belə ki, o, Fövqəladə Hallar Nazirliyinin təşkil etdiyi xilasedici təlimlərinə qatılıb və gələcəkdə xilasedici olmağa qərar verib.

### "Hər maraqlı məlumat mənim üçün qiymətlidir"

Aysun Ağazadə şəhid mayor Ramil Ağayevin qızıdır. "Zəfər" düşərgəsində maraqlı və əyləncəli günlər keçirdiyini deyir: "Ebru, kapoera, ilk tibbi yardım və s. fəaliyyətlərinə qatıldıq, milli rəqsləri öyrəndik. STEAM-da 3D rəsmləri hazırladıq, ekskursiyaya getdik. Ekskursiya zamanı Qubanın tarixi ilə bağlı mənim üçün çox maraqlı olan məlumatlar əldə etdim. Bütün bunları öyrənmək maraqlı oldu. Hər maraqlı məlumat mənim üçün qiymətlidir".

Aysun da burada qurduğu dostluq münasibətlərindən çox razıdır: "Burada qazandığım və mənim üçün dəyərli olan dostlarım var ki, onlarla gələcəkdə də əlaqələrmi davam etdirməyi düşünürəm".

**Ruhiyyə DAŞSALAHLI**

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 24 iyul tarixli 226 nömrəli Qərarı ilə təsdiq edilmişdir*

# Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi QAYDASI

## 1. Ümumi müddəa

1.1. Bu Qayda Təhsil Tələbə Krediti Fondunun (bundan sonra - Fond) vəsaiti hesabına tələbələrə təhsil tələbə kreditinin verilməsinə dair tələbləri, təhsil tələbə kreditinin verilməsi prosedurunu, təhsil tələbə krediti üzrə hüquqların əldə olunmasını və kreditin qaytarılmasını, habelə təhsil tələbə krediti ilə bağlı digər məsələləri tənzimləyir.

## 2. Əsas anlayışlar

2.1. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. təhsil tələbə krediti (bundan sonra - TTK) - Azərbaycan Respublikasının təhsil müəssisələrində təhsil haqqı xərclərini ödəmək üçün Fondun vəsaiti hesabına müvəkkil bank tərəfindən tələbə ilə bağlanılmış müqaviləyə uyğun olaraq müəyyən müddətə və faizlər ödənilmək şərtilə borc verilən pul vəsaitidir;

2.1.2. tələbə - ali təhsil pilləsinin bakalavriat (əsas (baza ali) tibb təhsili) və magistratura (rezidentura) səviyyələrində, orta ixtisas təhsili pilləsində və peşə təhsili pilləsinin yüksək texniki peşə təhsili səviyyəsində əyani təhsil alan şəxs;

2.1.3. müvəkkil bank - TTK üzrə tələb olunan hüquqların əldə edilməsinə və bununla bağlı yaranan digər münasibətlərin tənzimlənməsinə dair Fondla müqavilə bağlamış bank;

2.1.4. baş saziş - TTK üzrə tələb hüquqlarının əldə edilməsi qaydalarını və bununla bağlı yaranan münasibətləri tənzimləyən Fondla müvəkkil bank arasında bağlanılan razılaşma;

2.1.5. borcalan - müvəkkil bankdan TTK almış Azərbaycan Respublikasının vətəndaşı olan tələbə;

2.1.6. kredit müqaviləsi - müvəkkil bank və borcalan arasında imzalanan borc müqaviləsi;

2.1.7. güzəşt dövrü - təhsilin normativ müddətindən dərhal sonra yaranan və borcalandan borcun qaytarılması tələb olunmayan və kredit faizi hesablanmayan 2 (iki) illik dövr;

2.1.8. möhlət dövrü - kreditin qaytarılması müddətində borcalandan borcun qaytarılması tələb olunmayan və kredit faizi hesablanmayan dövr;

2.1.9. defolt - borcalan tərəfindən kredit müqaviləsində borc öhdəlikləri üzrə ödənişlərin (əsas məbləğ və ona hesablanan faizlər və ya hər hansı biri) müqavilədə və ya ödəniş cədvəlində göstərilən tarixdən 90 təqvim günündən artıq gecikdirilmə və ya bu öhdəliyin yerinə yetirilməsindən imtina edilməsi halı;

2.1.10. faydalanan şəxs - sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişi verilməli olan şəxs;

2.1.11. sığorta haqqı - bu Qaydanın 8-ci hissəsində nəzərdə tutulmuş risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta müqaviləsi ilə müəyyən edilən qaydada sığortaçıya ödənilməli olan pul məbləği;

2.1.12. sığorta hadisəsi - sığorta müqaviləsinə görə sığorta ödənişinin ödənilməsi üçün əsas olan və müqavilənin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan hal;

2.1.13. sığorta ödənişi - sığorta hadisəsi baş verdikdə, sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə təzminatı (kompensasiya);

2.1.14. ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG) - tələbənin fənlər üzrə topladığı balların həmin fənnə görə qazanılan kreditlərə hasilləri cəmlərinin tədris planında həmin semestrdə tədris olunan fənlərə görə nəzərdə tutulan müvafiq kreditlərin cəminə olan nisbəti.

## 3. TTK-nin növləri və kreditdən istifadə hüququ

3.1. TTK-nin iki növü vardır:

3.1.1. sosial;

3.1.2. standart.

3.2. Aşağıdakı tələbələr təhsillərinin birinci tədris ilinin ilk semestrindən (yarımildən) sosial TTK-dən istifadə etmək hüququna malikdirlər:

3.2.1. ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri;

3.2.2. 3-cü dərəcə əlilliyi olanlar;

3.2.3. hər iki valideyni (tək valideyni olduqda isə həmin şəxs) aşağıda qeyd olunan kateqoriyaların hər hansı birinə aid olanlar:

1. 1-ci və ya 2-ci dərəcə əlilliyi olanlar;
2. işsiz kimi qeydiyyatda olanlar;
3. yaşa görə əmək pensiyası alanlar;
4. yaşa görə sosial müavinət alanlar.

3.3. Tədris semestri (yarımili) müddətində TTK-nin verilməsi barədə müraciət edildiyi gün tələbə bu Qaydanın 3.2-ci bəndində göstərilən kateqoriyalardan birinə aid olduğu halda həmin semestr (yarımil) üçün sosial TTK almaq hüququna malikdir.

3.4. Sosial TTK almaq hüququ olmayan aşağıdakı tələbələr təhsillərinin birinci tədris ilinin ilk semestrindən (yarımildən) etibarən standart TTK almaq hüququna malikdirlər:

3.4.1. birinci tədris ilinin ilk semestri (yarımili) üçün tələbə qəbulu imtahanında toplanan ümumi balın Fondun Himayəçilik Şurası tərəfindən müəyyən edilən minimal həddindən yuxarı olanlar, digər semestrlər (yarımillər) üçün isə ÜOMG-si 71 bal və yuxarı olanlar (peşə təhsili müəssisələrində təhsilalanlara münasibətdə aralıq qiymətləndirmə balı 71 bal və yuxarı olanlar);

3.4.2. illik təhsil haqqı xərcinin ən azı 20 faizini ödəyənlər.

3.5. Standart TTK almaq hüququ müraciət tarixinə bu Qaydanın 3.4-cü bəndində göstərilən şərtlər eyni vaxtda yarandıqda təmin olunur.

3.6. TTK ilk növbədə sosial TTK hüququ olanlara verilir.

3.7. TTK bu Qaydanın 2.1.2-ci yarımbəndində göstərilən təhsil pillə və səviyyələri və həmin pillə və səviyyələrin hər tədris semestri (yarımili) üzrə yalnız bir dəfə və təhsilin normativ müddətində verilir.

3.8. TTK almaq hüququnu müəyyənləşdirən halların müraciətin qeydiyyata alındığı tarixdən sonra dəyişməsi həmin semestr üçün verilmiş kredit şərtlərini dəyişdirmir.

3.9. Fondun Himayəçilik Şurası:

3.9.1. Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla, standart və sosial TTK üzrə illik faiz dərəcələrini, habelə hər tədris ili üçün təsdiq edilən tələbə qəbulunda nəzərdə tutulmuş ayrı-ayrı ixtisaslar üzrə ödənişli əsaslarla təhsilalana düşən illik təhsil haqlarının məbləği nəzərə alınmaqla, təhsil tələbə kreditinin məbləğinin yuxarı həddini təsdiq edir;

3.9.2. birinci tədris ilinin ilk semestri (yarımili) üçün tələbələrin standart TTK almaq hüququnu müəyyən edən tələbə qəbulu imtahanında toplanan ümumi balın minimal həddini təsdiq edir.

3.10. Təhsil haqqı TTK-nin maksimal məbləğindən çox olduqda, yaranan fərq tələbə tərəfindən təhsil müəssisəsinə ödənilir.

3.11. TTK-nin müddəti təhsilin səviyyəsindən və ixtisasdan asılı olaraq qanunvericiliklə müəyyən edilmiş təhsilin normativ müddətindən, güzəşt dövründən və kreditin qaytarılması müddətindən (10 il) ibarətdir. Kreditin qaytarılması müddəti bu Qaydanın 7.6-cı bəndi ilə müəyyən edilmiş möhlət müddəti qədər uzadılır.

## 4. TTK-nin verilməsinə dair tələblər və tətbiq edilən güzəştlər

4.1. Fondun vəsaiti hesabına verilən TTK üzrə tələblər aşağıdakılardır:

4.1.1. TTK-nin tədrisə tam cəlb olunaraq (fulltime) təhsil müəssisələrində əyani təhsil alan tələbələrə verilməsi;

4.1.2. TTK-nin təhsilin normativ müddətində hər tədris semestri (yarımil) üçün verilməsi;

4.1.3. TTK-nin veriləcəyi semestrdən əvvəlki semestr (yarımil) üzrə hər hansı bir fənn (modul) üzrə akademik borcun olmaması;

4.1.4. TTK üçün girov və zaminliyin tələb olunmaması;

4.1.5. TTK üzrə əsas borcun və hesablanmış faizlərin hər ay bərabər hissələrlə (annuitet ödənişlər) qaytarılması;

4.1.6. təhsilin normativ müddətində, güzəşt və möhlət dövründə kreditə faiz hesablanmaması və qaytarılmasının tələb edilməməsi;

4.1.7. borcalanın ölümü, əmək qabiliyyətinin tam və ya qismən itirilməsi (əlillik) hallarından kreditin həcmindən az olmamaq şərtilə sığortalanması;

4.1.8. TTK-nin Azərbaycan Respublikasının vətəndaşlarına manatla verilməsi.

4.2. Sosial TTK üzrə aşağıdakı güzəştlər tətbiq olunur:

4.2.1. ÜOMG-si 71 bal və yuxarı olan (peşə təhsili müəssisələrində təhsilalanlara münasibətdə aralıq qiymətləndirmə balı 71 bal və yuxarı olan) borcalana həmin tədris semestri üçün götürdüyü kreditə görə faiz hesablanmır;

4.2.2. təhsilin normativ müddətində bütün tədris semestrlərində ÜOMG-si 91 bal və yuxarı olan (peşə təhsili müəssisələrində təhsilalanlara münasibətdə aralıq qiymətləndirmə balı 91 və yuxarı olan) borcalan təhsilin normativ müddətində aldığı TTK-nin 50 faizi hissəsinin ödənişindən azad olunur.

4.3. Standart TTK üzrə aşağıdakı güzəştlər tətbiq edilir:

4.3.1. ÜOMG-si 91 bal və yuxarı olan (peşə təhsili müəssisələrində təhsilalanlara münasibətdə aralıq qiymətləndirmə balı 91 bal və yuxarı olan) borcalana həmin tədris semestri üçün götürdüyü kreditə görə faiz hesablanmır;

4.3.2. təhsilin normativ müddətində bütün tədris semestrlərində ÜOMG-si 91 bal və yuxarı olan (peşə təhsili müəssisələrində təhsilalanlara münasibətdə aralıq qiymətləndirmə balı 91 bal və yuxarı olan) borcalan təhsilin normativ müddətində aldığı TTK-nin 25 faizi hissəsinin ödənişindən azad olunur.

## 5. TTK-nin verilməsi üçün müraciət edilməsi və sənədləşmə

5.1. TTK-nin verilməsinə dair məsələlərin tənzimlənməsi Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə "Təhsil Tələbə Krediti" alt sistemi (bundan sonra - elektron sistem) vasitəsilə həyata keçirilir.

5.2. TTK almaq istəyən tələbə, onun valideynləri, övladlığa götürənləri və ya himayəçisi notariat qaydasında təsdiq edilmiş ərizə ilə aşağıdakı razılıqları verməlidirlər:

5.2.1. valideynlər, övladlığa götürənlər və ya himayəçi - 18 yaşınadək olan yetkinlik yaşına çatmayan tələbənin kredit müqaviləsi bağlamasına (tələbənin 18 və daha çox yaşı varsa bu tələb olunmur);

5.2.2. tələbə - ona aid gəlirlərin, xərclərin, əmlakların və digər zəruri fərdi məlumatların kredit müqaviləsinin qüvvədə olduğu müddətdə aidiyyəti dövlət orqanları və təşkilatları tərəfindən Fondun və müvəkkil bankın sorğusu əsasında ona (onlara) təqdim edilməsinə və muzdla və ya mülki-hüquqi xarakterli müqavilələrlə işlədikdə və ya sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda alacağı əməkhaqqından və ya əldə edəcəyi gəlirdən TTK-nin qaytarılması məqsədilə müvəkkil bankın xeyrinə tutulmaların (gəlirin 20 faizindən çox olmamaq şərtilə) edilməsinə.

5.3. Bu Qaydanın 5.2-ci bəndinə müvafiq olaraq notariat qaydasında təsdiq olunmuş ərizə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Elektron notariat" informasiya sistemindən sorğu əsasında elektron sistemə göndərilir. Bu razılıq başqa məqsədlərə və ya digər kreditin qaytarılmasında istifadə edilə bilməz. Razılıq kredit müqaviləsinin qüvvədə olduğu müddət üçün verilir.

5.4. Bu Qaydanın 5.2-ci bəndinə müvafiq olaraq razılığı rəsmiləşdirilmiş tələbə elektron sistemdə qeydiyyatdan keçir və ona elektron sistemdə "Şəxsi kabinet" açılır, kabinetin şifrəsi onun əlaqə vasitələrinə (mobil telefonuna və ya elektron poçt ünvanına) göndərilir. Tələbə "Şəxsi kabinet"i vasitəsilə TTK-nin rəsmiləşdirilməsi üçün tələb olunan məlumatları əldə edə və müraciətinin statusunu izləyə bilər.

5.5. TTK almaq hüququ elektron sistem vasitəsilə müəyyən edilir.

5.6. TTK almaq hüququ olmayan tələbəyə "Şəxsi kabinet" vasitəsilə bu barədə göndərilən məlumatda imtinanın səbəbləri əsaslandırılır.

5.7. TTK-nin verilməsindən imtina edilmiş şəxsin TTK almaq üçün növbəti semestrdə (yarımildə) təkrar müraciət etmək hüququ vardır.

5.8. TTK almaq hüququ olan tələbəyə müvafiq müvəkkil banka müraciət olunması barədə bildiriş göndərilir.

5.9. TTK Fondun vəsaiti hesabına bu Qayda ilə müəyyən edilmiş tələbələrə müvəkkil bank tərəfindən verilir.

5.10. Fondla baş saziş imzalamış və elektron sistemə çıxış imkanları olan müvəkkil bank TTK almaq hüququ olan şəxslər barədə məlumatı bu sistem vasitəsilə elektron qaydada əldə edir.

5.11. TTK-nin alınması üçün borcalan müvəkkil banka aşağıdakı sənədləri təqdim etməlidir:

5.11.1. əvvəlki tədris semestri üçün ÜOMG-yə (peşə təhsili müəssisələrində təhsilalanlara münasibətdə aralıq qiymətləndirmə üzrə göstəriciyə) dair təhsil müəssisəsinin arayışı;

5.11.2. təhsil haqqının məbləği barədə təhsil müəssisəsinin arayışı;

5.11.3. standart TTK üçün illik təhsil haqqının ən azı 20 faizi məbləğində ödənişin edilməsi barədə təsdiqedici sənəd.

5.12. Bu Qaydanın 5.11-ci bəndində göstərilən sənədlərdəki məlumatlar müvəkkil bank tərəfindən elektron qaydada əldə edildiyi halda, qeyd edilən sənədlər kağız daşıyıcıda tələbədən tələb olunmur.

5.13. Sənədlər kağız daşıyıcıda təqdim edildiyi təqdirdə, müvəkkil bankın məsul işçisi təqdim olunmuş sənədləri elə həmin gün elektron sistemə daxil edərək gücləndirilmiş elektron imza ilə təsdiqləyir.

5.14. Müvəkkil bank elektron sistem vasitəsilə və ya kağız daşıyıcıda əldə etdiyi sənədləri nəzərdən keçirərək, 3 (üç) iş günü müddətində TTK almaq istəyən şəxs barədə TTK-nin verilməsinə dair qərar qəbul edir. Həmin qərar qəbul edildiyi gün TTK almaq istəyən şəxsə bildirilməklə, tələbənin "Şəxsi kabinet"ində yerləşdirilir.

5.15. Müvəkkil bank tərəfindən TTK-nin verilməsinə razılıq barədə qərar elektron sistemdə yerləşdirildiyi gündən 6 (altı) iş günü müddətində kredit müqaviləsi bağlanılır.

5.16. Kredit müqaviləsində ən azı aşağıdakılar asan oxunan və aydın şəkildə göstərilir və elektron sistemə ötürülür:

5.16.1. kreditin təyinatı (təhsil haqqı);

5.16.2. kreditin şərtləri (kreditin məbləği, müddəti, faktiki illik faiz dərəcəsi, komisyon haqları (əgər nəzərdə tutulursa), müvəkkil bank tərəfindən tələb olunan digər ödənişlər);

5.16.3. kreditin gecikdirilmə şərtləri;

5.16.4. ödəniş cədvəli;

5.16.5. tərəflərin hüquq və vəzifələri;

5.16.6. vaxtından əvvəl ödənişlərin müvəkkil bank tərəfindən tələb edilməsi şərtləri;

5.16.7. kredit müddəti ərzində müqaviləyə əlavə və dəyişikliklərin edilməsi qaydası;

5.16.8. tərəflərin məsuliyyəti;

5.16.9. mübahisələrin həlli qaydası.

5.17. Müvəkkil bankla tələbə arasında çərçivə kredit müqaviləsi təhsilin normativ müddətində bir dəfə bağlanılır və kreditin məbləği təhsilin normativ müddətində hər tədris semestri (yarımil) üçün tələbənin müraciəti əsasında tranşlarla (hissələrlə) kredit almaq hüququ yarandığı halda müvəkkil bank tərəfindən təhsil müəssisəsinin müvafiq bank hesabına köçürülür.

## 6. TTK üzrə müvəkkil bankla münasibətlər

6.1. TTK üzrə bank əməliyyatları seçilmiş müvəkkil bank tərəfindən həyata keçirilir.

6.2. Müvəkkil bankın seçilməsi meyarları aşağıdakılardır:

6.2.1. kreditlərin verilməsi ilə bağlı əməliyyatların aparılmasına dair lisenziyanın olması;

6.2.2. 1 (bir) ildən yuxarı davamlı bank fəaliyyətinin mövcudluğu;

6.2.3. prudensial normativlərə və tələblərə əməl edilməsi;

6.2.4. regionlarda filial şəbəkəsinin olması;

6.2.5. beynəlxalq reytinq agentlikləri tərəfindən ölkə üzrə verilmiş reytinqdən maksimum iki pillə aşağı olması.

6.3. TTK-nin maliyyələşdirilməsi, bu sahədə xidmət və TTK-nin geri qaytarılması dövründə həmin vəsaitlərin müvəkkil bank tərəfindən Fonda köçürülməsi Fond və müvəkkil bank arasında bağlanılan baş saziş əsasında həyata keçirilir.

6.4. Müvəkkil bank TTK-nin maliyyələşdirilməsi üçün tələb olunan vəsait barədə baş sazişdə nəzərdə tutulmuş müddətdə Fonda müraciət edir və tələb olunan sənədləri Fonda təqdim edir.

6.5. Fond müvəkkil bankın müraciətini və təqdim olunan sənədləri yoxladıqdan sonra 3 (üç) iş günü ərzində tələb olunan vəsaitin müvəkkil bankın hesabına köçürülməsini təmin edir.

6.6. TTK-nin maliyyələşdirilməsi ilə bağlı müvəkkil bank tərəfindən Fonda təqdim edilməli sənədlərin siyahısını Fondun Himayəçilər Şurası müəyyən edir.

6.7. Müvəkkil bankla Fond arasında qarşılıqlı öhdəliklər Fond ilə müvəkkil bank arasında imzalanmış baş sazişdə əhatə olunur. Borcalanların müvəkkil bank qarşısında öhdəliklərini yerinə yetirib-yetirməməsindən asılı olmayaraq, müvəkkil bank və Fond baş sazişlə müəyyən edilmiş öhdəliklərini bu Qaydanın 7.15-ci bəndi nəzərə alınmaqla yerinə yetirməlidirlər.

6.8. Müvəkkil bank bu Qaydada və Fond ilə müvəkkil bank arasında imzalanmış baş sazişdə kredit inzibatçılığı ilə bağlı müəyyən edilmiş tədbirləri həyata keçirməli və bu barədə məlumatları elektron sistemə daxil etməlidir. Bu öhdəliklərin müvəkkil bank tərəfindən yerinə yetirilməməsi və ya qismən icra edilməsi hallarının kreditin defoltuna səbəb olduğu müəyyən edildiyi halda, Fond defolt olunan kredit üzrə məbləği müvəkkil bankdan geri tələb etmək hüququna malikdir. Bu hallar Fondun cəlb etdiyi kənar audit tərəfindən müəyyən edilir.

6.9. Müvəkkil bankın lisenziyası ləğv edildikdə, Fondun həmin bankda qalan vəsaitinin qaytarılması ləğvedici tərəfindən "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 82-ci maddəsinə uyğun ödənişlərin növbəliliyi əsasında həyata keçirilir.

## 7. TTK-nin qaytarılması

7.1. Borcalan TTK-ni bu Qaydanın 4.1.5-ci yarımbəndi ilə müəyyən edilmiş qaydada əvvəlcədən təsdiq edilmiş ödəniş cədvəli üzrə qaytarır.

7.2. Borcalanda TTK-nin qaytarılması öhdəliyi TTK-nin qaytarılma dövründə, yəni güzəşt dövründən sonra yaranır.

7.3. TTK almış, lakin təhsilini başa çatdırmamış və təhsil müəssisəsindən xaric olunmuş borcalana münasibətdə TTK-nin qaytarılması öhdəliyi bu halların təhsil müəssisəsi tərəfindən rəsmiləşdirildiyi gündən başlanır.

7.4. Güzəşt dövründə borcalanın əmək və ya sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu müəyyən edilərsə, tələbə kreditlərinin qaytarılması öhdəliyi bu fəaliyyətin başlandığı tarixdən yaranır.

7.5. Bu Qaydanın 7.3-cü və 7.4-cü bəndlərində mövcud olan hallarda ödəniş cədvəli həmin halların yarandığı gündən başlayaraq yenidən tərtib edilir.

7.6. TTK-nin qaytarılması dövründə aşağıdakı hallar baş verərsə, TTK-nin qaytarılmasına möhlət verilir və kredit müqaviləsinin müddəti həmin müddətə qədər uzadılır:

7.6.1. yuxarı təhsil səviyyəsində əyani təhsil;

7.6.2. həqiqi hərbi xidmət;

7.6.3. məhkumluq (4 ildən çox olmayaraq azadlıqdan məhrumetmə və ya azadlığın məhdudlaşdırılması);

7.6.4. işləyən borcalana münasibətdə hamiləliyə və doğuma görə və uşağının üç yaşı tamam olanadək ona qulluq etməkdən ötrü qismən ödənişli sosial məzuniyyətdə olduğu müddət;

7.6.5. sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara və I dərəcə əlilliyi olan şəxslərə qulluq müddəti.

7.7. Möhlət müddətində tələbənin əmək və ya sahibkarlıq fəaliyyəti ilə məşğul olması faktı aşkarlanarsa, möhlət müddəti bu fəaliyyətə başlama tarixindən ləğv edilir.

7.8. TTK-yə görə möhlət bu Qaydanın 7.6-cı bəndində göstərilən halları təsdiq edən sənədlər müvəkkil banka təqdim edildikdə verilir. Bu sənədlərdəki məlumatlar müvəkkil bank tərəfindən elektron qaydada əldə edildiyi halda, qeyd edilən sənədlər kağız daşıyıcıda tələbədən tələb olunmur.

7.9. TTK vaxtından əvvəl qaytarıla bilər.

7.10. TTK borcalanın özü və ya onun əvəzinə hər hansı bir şəxs (valideyni, qohumu, işəgötürəni və s.) tərəfindən qaytarıla bilər.

7.11. Əmək müqaviləsi ilə işləyən və ya sahibkarlıq fəaliyyəti ilə məşğul olan, lakin ödəniş cədvəlinə uyğun TTK-ni qaytarmayan şəxslərdən TTK üzrə ödənişlər əməkhaqqından və ya gəlirlərdən bu Qaydanın 7.12-ci və 7.14-cü bəndləri ilə müəyyən edilmiş qaydada tutulur. Digər hallarda ödəniş cədvəlinə uyğun TTK-ni qaytarmayan borcalanın TTK üzrə ödənişləri məhkəmə qaydasında tutulur.

7.12. Əmək müqaviləsi ilə işləyən borcalanın əməkhaqqından TTK-nin tutulması Azərbaycan Respublikası Əmək Məcəlləsinin 175-ci maddəsinin tələblərinə uyğun həyata keçirilir. Belə olan halda bu Qaydanın 5.2.2-ci yarımbəndinə uyğun olaraq kredit müqaviləsi bağlanan zaman tələbə tərəfindən təqdim edilən TTK üzrə ödənişlərin əməkhaqqından tutulması barədə notariat qaydada təsdiq olunmuş razılığı əsas götürülür.

7.13. Borcalanın əmək fəaliyyəti ilə məşğul olması halı sistemə inteqrasiya olunmuş Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə müəyyən edilir. Müvəkkil bank bu sistemə çıxış əldə edərək, əməkhaqqından kredit üzrə ödənişlərin tutulması barədə borcalanın notariat qaydasında təsdiq olunmuş razılığını işəgötürənə göndərərək ödənişləri tələb edir.

7.14. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan borcalandan TTK üzrə ödənişlər onların bank hesablarından TTK götürmüş borcalanın bu Qaydanın 5.2.2-ci yarımbəndinə əsasən notariat qaydasında təsdiq olunmuş razılığı təqdim olunmaqla tutulur. Müvəkkil bank sistemə inteqrasiya olunmuş Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi vasitəsilə borcalanın sahibkarlıq fəaliyyəti ilə məşğul olub-olmaması, eləcə də bank hesabları barədə məlumatları əldə edir.

7.15. Borcalan TTK üzrə öhdəliklərini yerinə yetirmədikdə, habelə bu Qaydanın 6.8-ci bəndində göstərilən hallar istisna olmaqla TTK üzrə defolt halı baş verdikdə, müvəkkil bankın Fond qarşısında hər hansı maliyyə öhdəliyi yaranmır.

## 8. TTK üzrə borcalanın sığortalanması

8.1. TTK üzrə borcalan aşağıdakı hallardan sığortalanır:

8.1.1. ölüm;

8.1.2. əmək qabiliyyətinin tam və ya qismən itirilməsi (əlillik).

8.2. TTK-nin sığortalanması kredit müqaviləsi rəsmiləşdirilən zaman həyata keçirilir. Sığorta müddəti kredit müqaviləsinin müddətinə bərabər olmalıdır.

8.3. Sığorta müqaviləsinin tərəfləri TTK-ni alan tələbə və sığortaçıdır. Sığorta haqqı kredit müqaviləsinə uyğun hesablanır və kreditin məbləğinə əlavə olunaraq sığorta müqaviləsində nəzərdə tutulmuş qaydada ödənilir.

8.4. TTK-nin sığortalanması zamanı faydalanan şəxs qismində müvəkkil bank müəyyən edilir.

8.5. Sığorta müqaviləsinin bağlanılması anında sığorta məbləği kredit məbləğinə bərabər müəyyən edilir.

8.6. Sığorta müqaviləsi üzrə işlərin aparılması xərcləri (vasitəçilərə verilən komisyon muzdlar da daxil olmaqla) müqavilə üzrə hesablanmış sığorta haqqının 15 faizindən çox ola bilməz.

# Hədəfə doğru...

## Müəllimlərin işə qəbulu müsabiqəsi davam edir

22 iyul saat 12:30. Azərbaycan Texniki Universitetinin ən böyük zalındayıq. Azərbaycan dili və Ədəbiyyatı fənni üzrə imtahanlar davam edir. Namizədlər sıra ilə yerini alıb. Arzu Kərimova da onların arasındadır. 90 dəqiqə ərzində 60 suala cavab verəcək: "2018-ci ildən müəllimlərin işə qəbulu müsabiqəsinə qatılıram. Nəticəmi ilbəil artırmışam. 2018-ci ildə 45 bal idisə, 2019-cu ildə 55 bal topladım. Ötən il işləyən müəllimlərə icazə verilmədiyi üçün imtahanda iştirak edə bilmədim. Bu il yenidən burdayam".







### "Hədəfimə çatdım"

...90 dəqiqə sonra. Budur, vaxt bitdi. Vaxtın bitdiyini sistem özü xəbər verir. İmtahanın bitdiyini göstərən xəbərdarlıqla yanaşı, namizədin qeyd etdiyi cavabların nəticəsi də ekranda görünür. Arzu Kərimovanın nəticəsi onun üzünü güldürür: "Nəhayət, bu il istəyimə çatdım. 60 bal topladım".

1986-cı il təvəllüdlü namizəd hədəfinin mümkün ən yüksək balı toplamaq olmasının səbəbini belə izah edir: "2008-ci ildən Hacıqabul rayon Cavad Cavadov adına Atbulaq kənd tam orta məktəbində pedaqoji fəaliyyət göstərirəm. Ancaq ailəm Qaradağ rayonunun Ələt qəsəbəsində yaşayır və 3 azyaşlı uşağımın mənə ehtiyacı var. Hacıqabulda müəllimlik fəaliyyətimi davam etdirmək körpə uşaqlarla çətinlik törədir. Onun üçün imtahanda yaxşı nəticə göstərib qəsəbəmizdə yerləşən məktəblərin birində işləmək istəyirəm. Ən yüksək balı toplamalıydım ki, iş yerimi yaşayış yerimə uyğun dəyişə bilim".

Azərbaycan Müəllimlər İnstitutunun Zaqatala filialının məzunu uğurunu imtahanlara hazırlığı ilə əlaqələndirir: "Asan olmadı, əziyyət çəkdim. Axı, hədəfim böyük idi. Əsas odur, hədəfimə çatdım".

Bu imtahanda 60 bal toplaması onun özgüvənini artırıb: "İmtahan sualları asan, orta və çətinlik dərəcəsindəydi. Hətta əksəriyyəti düşündürücüydü deyə bilərəm. Buna baxmayaraq, ən yüksək balı toplaya bildim. Bu da o deməkdir ki, insan hazırlıqla hər şeyə nail ola bilər. Öz üzərində yaxşı çalışan müəllim mütləq uğur qazanar".

"Mən şagirdlərimi, onlar da məni sevirlər", - deyən namizədin sözlərinə görə, onu özünə nümunə götürənlər çoxdur: "Onlarla şagirdim Azərbaycan dili və ədəbiyyatı ixtisasını, ən əsası, müəllimliyi seçib. Müəllim üçün bundan böyük hədiyyə nə ola bilər? Müəllimliyi mənə də Şirvan şəhərində tarix müəllimim olmuş Məhbubə Mirzəyeva sevdirib. Sevinirəm ki, mən Məhbubə müəllimimi hər uğurumda xatırladığım kimi, məndən stimul alıb müəllimliyi seçən şagirdlərim də məni unutmayacaqlar".

### "Şagirdlərimin əksəriyyəti yüksək balla ali məktəblərə qəbul olunublar"

Azərbaycan dili və ədəbiyyatı fənni üzrə imtahanların bu seansında özünü xoşbəxt hiss edən daha bir müəllim. İkinci 60 balın sahibi Ruslan Mustafayevlə də söhbətləşirik. O, Şəkidəndir. Azərbaycan Müəllimlər İnstitutunun Şamaxı filialının Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə məzunudur: "2012-ci ildən müəlliməm. Ayrı-ayrı təhsil müəssisələrində çalışmışam. Şagirdlərimin əksəriyyəti yüksək balla ali məktəblərə qəbul olunublar".

Sadəcə şagirdləri yox, özü də imtahanlardan üzüağ çıxıb: "Həm 2019-cu ildə, həm də 2020-ci ildə müəllimlərin işə qəbulu üzrə müsabiqəsində iştirak edib 54 bal topladım. Ancaq heç birində daimi əsaslarla işə qəbul oluna bilmədim. Nəhayət, bu il imtahanda 60 bal topladım. Buna görə də çox sevinirəm".

R.Mustafayev deyir ki, imtahanlara hazırlaşarkən əsas diqqətini metodikaya ayırıb: "Təvazökarlıqdan uzaq olmasın, ixtisasım üzrə hazırlığa heç ehtiyac duymadım. Bütün vaxtımı kurikulum üzrə hazırlığa həsr etdim".

R.Mustafayev hesab edir ki, bu hazırlığa dəyib: "İmtahan olduqca şəffaf keçdi. Azərbaycan dilindən sadəcə bir sual vaxtımı aldı. Metodikadan düşən sualları cavablandırarkən heç bir çətinliyim olmadı".

Müəllimliyi sevərək seçdiyini vurğulayan R.Mustafayev deyir ki, ali təhsil müəssisələrinə qəbul zamanı da pedaqoji ixtisasları qeyd edib: "Azərbaycan dili və ədəbiyyat müəllimi olmağı hələ uşaqlıqdan qarşıma məqsəd qoymuşdum. Əmim də bu fənn üzrə çox nüfuzlu müəllimlərdən biri olub. Onun təsiri ilə mən də, bacım da bu peşəyə yiyələnmişik". R.Mustafayev müəllimlik fəaliyyətində gələcək planlarından da danışdı: "Bir müəllim kimi məktəbdə bütün bilik və bacarıqlarımı xalqımızın sevimli balalarının gələcək inkişafı yolunda sərf edəcəyəm. Şagirdlərimin bədii təxəyyülünü hərəkətə gətirən xüsusi tapşırıqlardan istifadə edəcək, onları məntiqi, tənqidi və yaradıcı təfəkkürü stimullaşdıran fəaliyyətlərə cəlb edəcəyəm. Dərslərimi mövcud təhsil proqramının tələblərinə uyğun quracağam. Vəzifə borcumu uğurla yerinə yetirəcəyəmə inanıram". R.Mustafayev məqsədinə çatmaq üçün lazım olan enerji və qabiliyyətə sahib olduğuna inanır: "Müəllimliyə və uşaqlara sevgim kifayət qədərdir. Düşünürəm ki, müəllim şagirdlərini bilikli, savadlı, bacarıqlı, tərbiyəli, səriştəli, məsuliyyətli bir vətəndaş-şəxsiyyət kimi formalaşdırmağa çalışmalı, öz fənnini sevdirməyi bacarmalıdır".

### Təkrar imtahanlar olacaq

17 gündür davam edən imtahanlarda yüksək bal toplayıb uğurundan fərəhlə danışanlarla yanaşı, narazılıqlarını dilə gətirənlər də var. Xüsusən, iyulun 5-dən baş tutan müəllimlərin işə qəbulu müsabiqəsinin imtahan mərhələsində istifadə edilmiş suallarla bağlı narazılıqlar ayrıca araşdırılıb. Aparılmış elmi-statistik tədqiqat çərçivəsində müxtəlif fənlər üzrə 5 040 test tapşırığı əhatə olunmaqla sualların məzmun xüsusiyyətləri, çətinlik dərəcəsi və diskriminasiya əmsalı təhlil edilib. Belə ki, iyulun 12-də ibtidai sinif, 23 və 26-da Azərbaycan dili və ədəbiyyat müəllimliyi üzrə keçirilmiş seanslarda istifadə edilən test tapşırıqlarının bu fənlər üzrə digər tarixlərdə keçirilmiş seanslarda istifadə edilmiş test tapşırıqlarından çətinlik dərəcəsinə görə fərqləndiyi müəyyən edilib.

Bu seanslarda texniki xüsusiyyətləri baxımından fərqlənən test tapşırıqlarına görə namizədlərə əlavə ballar veriləcək. Qeyd edilən tarixlərdə imtahanlarda iştirak etmiş namizədlər üçün təkrar imtahan imkanı da yaradılacaq. İmtahanlarda iştirak könüllü xarakter daşıyır. Təkrar olaraq imtahanlarda iştirak edən namizədlərin vakansiya seçimi mərhələsində son imtahan nəticəsi nəzərə alınacaq.

Təkrar imtahan vermək arzusunda olan namizədlər iyulun 28-i saat 11:00-dan iyulun 30-u saat 23:59-dək şəxsi səhifəyə daxil olaraq "müraciət et" butonuna klikləməklə qeydiyyatdan keçərək təkrar imtahanda iştirak edə bilər.

Ümumiyyətlə, imtahanlarla bağlı narazılığı olan bütün şəxslərə öz haqqını müdafiə etmək imkanı yaradılıb. Belə ki, iyulun 6-dan müəllimlərin işə qəbulu müsabiqəsinin test imtahanı mərhələsi ilə bağlı apellyasiya müraciətlərini araşdıran komissiya işə başlayıb. İmtahanda iştirak edənlər şəxsi səhifələrində növbəti gün saat 14:00-da aktivləşdirilən müvafiq xanaya daxil olaraq 48 saat (2 gün) ərzində apellyasiya müraciəti edə bilərlər. Namizədlər müvafiq xanaya müraciətlərinin məzmununu ətraflı şəkildə qeyd etməlidirlər. Apellyasiya müraciəti komissiya tərəfindən araşdırıldıqdan sonra müvafiq cavab namizədlərin şəxsi səhifələrinə göndərilir.

### 40 mindən çox şəxs imtahan verdi, 25 mindən çox şəxs isə verəcək

2021-2022-ci tədris ili üzrə müəllimlərin işə qəbulu müsabiqəsinin test imtahanı mərhələsi davam edir. İyulun 5-dən start götürən prosesdə artıq 40 minə yaxın namizəd imtahan verib. Bu gün coğrafiya və tarix fənnləri üzrə 3063 namizəd imtahanlara dəvət olunub.

Artıq fizika, informatika, ibtidai sinif, riyaziyyat, kimya, təsviri incəsənət, musiqi, Azərbaycan dili, rus dili, texnologiya və Azərbaycan dili və ədəbiyyatı müəllimliyi üzrə namizədlər imtahanlara qatılıb. Fizika üzrə imtahanlarda ən yüksək 59, informatika fənni üzrə 58, riyaziyyat üzrə 56, kimya üzrə 59 bal qeydə alınıb. İbtidai sinif üzrə müəllimliyə namizədlər arasında 10, Azərbaycan dili və ədəbiyyatı fənni üzrə 2 nəfər 60 bal toplayıb.

Beləliklə, müəllimlərin işə qəbulu imtahanları avqustun 2-dək yekunlaşacaq. Növbəti günlərdə 25 000-dən artıq namizədin imtahanlarda iştirakı gözlənilir.

**Ruhiyyə DAŞSALAHLI**

## Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində "Açıq qapı" günləri



Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində "Açıq qapı" günlərinə start verilib. "Açıq qapı" günlərinin 28-30 iyul tarixlərində təşkili nəzərdə tutulub.

Tədbir çərçivəsində iştirakçılar Təhsil Mərkəzinin maddi-texniki bazası ilə yaxından tanış olur, master klasslarda iştirak edir, aşpaz, qənnadçı-şirniyyatçı, dülgər, qaynaqçı, tikişçi, xalçaçı və digər ixtisaslar üzrə kadr hazırlığı şəraiti ilə əyani şəkildə tanış olmaq imkanı əldə edirlər. "Açıq qapı" günləri çərçivəsində Mərkəzə infoturlar təşkil olunur, emalatxanalar, dəzgahlar, sinif otaqları, ümumi olaraq Mərkəzin ərazisi və tədbirin xüsusi qonaqları ilə tanışlıq və işəgötürən təşkilatların mütəxəssisləri tərəfindən təqdimatlar həyata keçirilir.

Tədbir iştirakçılarına peşə təhsilinin əhəmiyyəti, şagirdlərin düzgün peşə seçiminin mühüm bir addım olduğu, peşə təhsilinin perspektivləri üzrə ətraflı məlumat verilməkdədir. Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin uğurlu məzunları tərəfindən infoturlarda iştirak edən ümumtəhsil məktəblərinin IX və XI sinif şagirdlərinə peşə sahələri üzrə bacarıqlara necə sahib ola biləcəkləri haqqında məsləhət və tövsiyələr verilir və uğur hekayələri paylaşılır.

Qeyd edək ki, tədbir mövcud karantin qaydalarına əməl olunmaqla təşkil olunur.

## Uşaqlar üçün açıq havada məşğələ, ekskursiya və ustad dərsləri

Təhsil Nazirliyinin dəstəyi, NARGIS Nəşriyyat Evi və Təhsil Nazirliyinin Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə 5-14 yaş arası uşaqlar üçün "Make the Earth Smile" ("Yer kürəsində təbəssüm yaradın") adlı "açıq dərs"lər, interaktiv görüşlər, açıq havada məşğələ, ekskursiyalar və ustad dərsləri proqramının təşkilinə başlanılıb.



Proqram çərçivəsində uşaqlara tullantıların düzgün atılması, təkrar emal edilə bilməyən materialların zərərləri və tullantılardan sənət əsərləri yaratmaq barədə məlumat verilir. Proqram 23 iyul - 27 avqust tarixlərində cümə günləri saat 17.00-19.00-da NARGIS jurnalının Dənizkənarı Milli Parkdakı sərgisində keçirilir.

Tədbirin proqramına mütəxəssislərlə görüşlər, israf problemi barədə uşaq qrupları ilə müzakirə, komanda debatları, həmçinin, açıq havada komanda interaktiv oyunları, NARGIS jurnalının sərgisinə ziyarət, heykəltəraş və rəssamların əsərlərinin müzakirəsi, "Əşyaların ikinci həyatı" oyun-ev tapşırığı və "Yaradıcı Mən" dizaynerlə master-klass daxildir.

Sərgidə təqdim olunan 15 instalyasiya arasında Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi ilə NARGIS Nəşriyyat evi tərəfindən 2019-cu ildə keçirilən ən yaxşı instalyasiya müsabiqəsinin qalibi Bakı Avropa Liseyinin şagirdləri tərəfindən hazırlanmış "Eynşteynin Portreti" paneli də yer alır.

Məktəblilərin bu cür sərgilərdə iştirakı onlarda təbiəti qoruma şüurunun formalaşdırılması və ekoloji tərbiyənin təbliği baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Pedaqoji Universiteti

2021/2022-ci tədris ilində aşağıdakı ixtisaslar üzrə ödənişli əsaslarla təkrar ali təhsil və yenidənhazırlanma təhsili almaq üçün sənəd qəbulu

**ELAN EDİR:**

**Təkrar ali təhsil üzrə:**

* İbtidai sinif müəllimliyi (əyani - Rus bölməsi);
* Məktəbəqədər təhsil (əyani - Rus bölməsi).

**Yenidənhazırlanma təhsili üzrə:**

* Musiqi müəllimliyi (əyani - Azərbaycan bölməsi);
* Təsviri incəsənət müəllimliyi (əyani - Azərbaycan bölməsi);

**Müraciət etmək üçün aşağıdakı sənədlər təqdim edilməlidir:**

* şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq olunmuş surəti və əlavə 3 nüsxə;
* bakalavr diplomu və diploma əlavənin notarial qaydada təsdiq olunmuş surəti və əlavə 3 nüsxə;
* bu ilin bakalavr məzunları üçün ali məktəbi bitirmə haqqında arayışın və transkriptin orijinalı;
* rektorun adına ərizə;
* 3x4sm ölçüdə 4 ədəd rəngli fotoşəkil;
* sağlamlıq haqqında arayış;
* CV (anket);
* işləyən şəxslər üçün əmək kitabçasının surəti.

*Müraciətçinin özü tələb olunan sənədləri 26 avqust 2021-ci il tarixədək (şənbə və bazar günlərindən başqa) saat 10:00-dan 14:00-dək ADPU-nun Davamlı təhsil və innovasiyalar şöbəsinə təqdim etməlidir.*

*Sənədləri təqdim etmək üçün universitetə yaxınlaşmazdan əvvəl müraciətçini maraqlandıran sualların və vaxtın dəqiqləşdirilməsi məqsədilə elanda verilən vatsap nömrəsi ilə əlaqə saxlanılması xahiş olunur.*

**QEYD:** Sənədləri təqdim edərkən mövcud karantin qaydalarına əməl olunması, o cümlədən tibbi maskadan istifadə mütləqdir.

**Ünvan:** Bakı şəhəri, Həsən Əliyev küçəsi 104, ADPU-nun II tədris binası, Davamlı təhsil və innovasiyalar şöbəsi (otaq 710)

**Telefon:** (+99412) 465-29-76

**Vatsap:** (+99450) 210 42 74

**E-mail:** adpu-davamli-qebul@mail.ru

**REKTORLUQ**


# Etibarsız sayılır

**Azərbaycan Müəllimlər İnstitutunun Şəki filialı** (indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı) tərəfindən 2015-ci ildə Məmmədova Aysel Tərlan qızına verilmiş A-065462 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2000-ci ildə Ercüment Arslan Murata verilmiş A-013835 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qax Peşə Liseyi** tərəfindən 1998-ci ildə Yusifova (Osmanova) Nəcabət Bayram qızına verilmiş 008405 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 272 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Əliyeva İlahə İslam qızına verilmiş A-278633 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Turizm və Menecment Universiteti** tərəfindən 2020-ci ildə İbrahimov Ümüd Firdovsi oğluna verilmiş C-067624 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Qax rayon** Alatəmir kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Şixamiraşvili Rusudan Vardenovnaya verilmiş B-404032 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 192 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Sadıxov Murad Fizuli oğluna verilmiş E-279787 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhəri Məktəb-Lisey Kompleksini** tam orta təhsil bazası üzrə 2016-cı ildə bitirmiş Bağırova Tamella Ramiz qızına verilmiş A-508935 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**H.Z.Tağıyev adına Azərbaycan Maliyyə-İqtisad Kolleci** tərəfindən 2002-ci ildə Həsənova Mehriban Kərim qızına verilmiş AB-II-079263 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şərur şəhər** 2 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Məmmədov Vüsal Oruc oğluna verilmiş A-748157 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zərdab şəhər** 3 nömrəli tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Babayeva (Abbasova) Aynurə Nazir qızına verilmiş A-101454 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 188 nömrəli tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Adilov Anar Şahin oğluna verilmiş B-657400 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitutunun Qazax filialı** tərəfindən 2005-ci ildə Əliyeva Gülər Fazil qızına verilmiş YB-008646 nömrəli Yenidənhazırlanma haqqında diplom itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Gülməmmədli kənd tam orta məktəbi 2010-cu ildə bitirmiş Əməşov Pünhan Nurəddin oğluna verilmiş B-709645 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Gülməmmədli kənd tam orta məktəbi 1977-ci ildə bitirmiş Süleymanov Fəxrəddin Adıgözəl oğluna verilmiş 997662 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** 4 nömrəli şəhər tam orta məktəbi 1977-ci ildə bitirmiş Ağayev Eynulla Feyzulla oğluna verilmiş AK-045475 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir şəhər** 6 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Əliyeva Kifayət Vəli qızına verilmiş A-037610 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Köhnəbazar kənd tam orta məktəbi 1996-cı ildə bitirmiş Cəlalov Mübariz İmrah oğluna verilmiş A-037679 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Dəyirmanlı kənd tam orta məktəbi 2018-ci ildə bitirmiş Mazaklı Rəhbər Rahib oğluna verilmiş E-119420 nömrəli attestat itdiyi üçün etibarsz sayılır.

**Kürdəmir rayon** Qarabucaq kənd tam orta məktəbi 1988-ci ildə bitirmiş Məmmədova Rüxsarə Əliqara qızına verilmiş 479505 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 3 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Əliyeva Günel Ələvsət qızına verilmiş 299720 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Dəmbəlov kənd məktəbin VIII sinfini 1988-ci ildə bitirmiş Məmmədov Sadıx Pişən oğluna verilmiş 228760 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Naftalan şəhər** İ.Nəsimi adına 1 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Sadıqov Anar Nazim oğluna verilmiş A-019874 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kimya Biologiya Təmayüllü Respublika Liseyi** 1990-cı ildə bitirmiş Paşayeva (Aydır) İnci Allahverdi qızına verilmiş 662020 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2017-ci ildə Məmmədov Nicat Sərfaz oğluna verilmiş A-137529 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı Sənaye Pedaqoji Texnikumu** tərəfindən 2009-cu ildə Abbaszadə Nərgiz Ağabala qızına verilmiş BB-II-098599 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Müasir İnnovasiyalar Liseyi** ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Təhməzov Mirismət Səməd oğluna verilmiş E-107458 nömrəli fərqlənmə attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Sarıcalı kənd tam orta məktəbin IX sinfini 2020-ci ildə bitirmiş Cümşüdov Tural Nurəddin oğluna verilmiş C-416922 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Sənaye Pedaqoji Kolleci** (indiki ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci) tərəfindən 2012-ci ildə Bidar (Qasımova) Aysel Heybət qızına verilmiş AA-023810 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci** tərəfindən 2019-cu ildə Nəhmətov Samil Nizami oğluna verilmiş AA-121984 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Baku Oxbridge Academy** 2020-ci ildə bitirmiş Seyidov Hadi Elçin oğluna verilmiş E-285465 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2015-ci ildə Mirzəyev Kamal Rövşən oğluna verilmiş A-076688 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 191 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Salmanov Rafael Teymur oğluna verilmiş E-211929 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 73 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Abdullayeva Ramilə Elşad qızına verilmiş A-719704 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar şəhər** 4 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş İbişli Qabil Ədalət oğluna verilmiş C-381608 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 1995-ci ildə Kəngərlinski Azər Fuad oğluna verilmiş AB-I-020588 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2003-cü ildə Xəlilov Rafiq Sarı oğluna verilmiş AB-I-081026 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 56 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Abdullayev Cahangir Adil oğluna verilmiş A-217296 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Könüllü kənd tam orta məktəbi 1994-cü ildə bitirmiş Əmrahova (Bağırova) Xəyalə Tahir qızına verilmiş 09 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin kollektivi nazirliyin İctimaiyyətlə əlaqələr sektorunun baş məsləhətçisi Billurə Hacızadəyə əzizi

**FİRUZƏ HACIYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan müəllimi" qəzetinin kollektivi Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun baş məsləhətçisi Billurə Hacızadəyə, Rabitə və İnformasiya Texnologiyaları üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin direktor müavini Rəsul Hacızadəyə əzizləri

**FİRUZƏ HACIYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74

**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 3990 **Sifariş** 1374

**Məsul növbətçi:** S.Kərimova

# Birincilərin BİRİNCİSİ

**Başa vurduğumuz tədris ili müəyyən çətinliklərinə baxmayaraq ölkəmizin təhsil sistemində bir sıra uğurlarla yadda qaldı. Təhsil Nazirliyi tərəfindən istedadlı uşaqların aşkara çıxarılması, bilik və bacarıqlarının stimullaşdırılması, onlarda elmi tədqiqatçılıq səriştələri və yaradıcılığın inkişaf etdirilməsi istiqamətində məqsədyönlü tədbirlərin təşkili nəticəsində şagirdlərimiz bir sıra beynəlxalq əhəmiyyətli olimpiadalarda uğurlar qazanaraq öz layiqli töhfələrini veriblər. Cari tədris ili həm də Respublika fənn olimpiadalarının qalibləri olan 8 istedadlı gənc - “Birincilərin birincisi” adına layiq görülən şagirdlərimiz üçün də yaddaqalan olub. Öz uğurları ilə diqqətçəkən gənclərimizi oxuculara təqdim edirik.**

## Uğur qazanan gənclərimizi tanıyaq



Ranal Qurbanov



Xanım Yaqublu



Yunis Əliyev



Nazim Çələbiyev

### “Uğurun sirri daim optimist olmaq və çalışmaqdır”

*Ranal Qurbanov, Bakı şəhəri M.F.Axundzadə adına 102 nömrəli tam orta məktəbin şagirdi:* - 2 may 2004-ci ildə Lənkəran şəhərində anadan olub. 2010-cu ildə Lənkəran şəhər V.Əliyev adına 4 nömrəli humanitar təmayüllü məktəb-liseyin 1-ci sinfinə gedib. Daha sonra təhsilini Bakı şəhəri M.F.Axundzadə adına 102 nömrəli tam orta məktəbdə davam etdirib və həmin məktəbi bitirib. 2019-cı ildə Respublika fənn olimpiadalarında biologiya fənni üzrə 3-cü yerə və bürünc medala layiq görülüb. 2020-ci ildə 31-ci Beynəlxalq Biologiya Olimpiadasında gümüş, 2021-ci ildə isə 32-ci Beynəlxalq Biologiya Olimpiadasında qızıl medallara sahib olub. 2021-ci ildə Respublika fənn olimpiadalarında biologiya fənni üzrə I yerə layiq görülüb və qızıl medal qazanıb. “ Birincilərin birincisi” adını qazandığı üçün Fəxri fərmanla təltif olunub.

Ranal Qurbanov 2021-ci ildə FLEX təqaüd proqramında iştirak edib və ABŞ-da təhsilini davam etməyə dəvət alıb. 2021-ci ilin may ayında SAT proqramı üzrə imtahan verərək 1600 baldan 1530 bal yığıb. Arzusu həkim olmaqdır. Kitabları və mütaliəni çox sevir. Həmyaşıdlarına tövsiyəsi zamanlarını düzgün planlamaları, faydalı keçirmələri, fəal həyat tərzi sürmələridir. Onun üçün uğurun sirri daim optimist olmaq və çalışmaqdır.

### “KAIST Universitetində təhsil almağı planlaşdırıram”

*Xanım Yaqublu, Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin şagirdi:* - Respublika fənn olimpiadalarında 4 dəfə iştirak edib, 3 dəfə qızıl medal qazanıb. İştirak etdiyi 7 Beynəlxalq olimpiadada 5 gümüş, 2 bürünc medala layiq görülüb.

- Respublika fənn olimpiadaları final mərhələsi beynəlxalq olimpiada formatında keçirilən və hər mərhələsində getdikcə daha maraqlı və çətin olan müsabiqədir. Bu müsabiqənin Beynəlxalq olimpiada nailiyyətlərimi qazanmağımda böyük rolu olduğunu deyə bilərəm. Final mərhələdə açıq sualların yoxlanılmasında və qaliblərin seçilməsində xüsusi diqqət göstərdikləri, dördüncü dəfə bu olimpiadada iştirakıma şərait yaratdıqları üçün münsiflər heyətində təmsil olunan bütün müəllimlərə təşəkkür etmək istərdim. Cənubi Koreyanın KAIST Universitetində kimya mühəndisliyi ixtisası üzrə təhsil almağı planlaşdırıram.

### “Qalib hissini yaşamaq çox qürurvericidir”

*Yunis Əliyev, Mingəçevir şəhər Ruslan Muradov adına Texniki-humanitar liseyin şagirdi:* - 2004-cü il iyulun 6-da Mingəçevir şəhərində anadan olub. 2010-cu ildə Mingəçevir şəhər Ruslan Muradov adına Texniki-humanitar liseyin 1-ci sinfinə daxil olub. Bu il həmin məktəbi əla qiymətlərlə bitirib.

- 2019-cu ildən başlayaraq Respublika fənn olimpiadalarında iştirak edirəm. 2 dəfə fənn olimpiadalarının finalçısı olmuşam. Bu il isə tarix fənni üzrə respublikada ən yüksək nəticəni əldə edərək “Birincilərin birincisi” adına layiq görülmüşəm. Təəssüratlarıma gəldikdə isə, həqiqətən, qalib hissini yaşamaq çox qürurvericidir. Məncə, bu uğuru əldə etmək üçün çox çalışmaq, əzmkar, ən əsası inadkar olmaq lazımdır. Hədəfim yüksək balla istədiyim ixtisasa daxil olmaqdır. Üzərimdə əməyi olan bütün müəllimlərimə təşəkkür edirəm.

### “Ailəmə, müəllimlərimə minnətdaram”

*Nazim Çələbiyev, İ.Hacıyev adına”Tərəqqi” texniki-humanitar liseyin şagirdi:* - 6 fevral 2004-cü ildə Mingəçevir şəhərində anadan olub. 2010-cu ildə Bakı şəhəri 159 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olub. 2021-ci ildə İ.Hacıyev adına “Tərəqqi” texniki-humanitar liseyi qızıl nişanla bitirib. “Fövqəladə hadisə şagirdlərin gözü ilə” mövzusunda keçirilən inşa-yazı müsabiqəsində 1-ci yerə layiq görülüb. 2021-ci il Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən buraxılış imtahanında 285.3 bal toplayıb. Builki Respublika fənn olimpiadalarında Azərbaycan dili və ədəbiyyat fənni üzrə I yeri tutaraq “Birincilərin birincisi” nominasiyasını qazanıb.

- Düşünürəm ki, ənənəvi olaraq hər il keçirilən Respublika fənn olimpiadaları şagirdlərin bilik və bacarıqlarını nümayiş etdirməsinə şərait, öz biliklərini artırmağa stimul yaradır. Mən təhsilə verilən dəyəri, diqqəti, qayğını gördükcə daha da həvəslənirəm. Təhsilə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə öz təşəkkürümü bildirirəm.

Məqsədim öz peşəsinə dərindən yiyələnmiş bir hüquqşünas olmaqdır. Qazandığım uğurlara görə ailəmə, müəllimlərimə minnətdaram.

### “İkinci dəfə “Birincilərin birincisi” oldum”

*Əziz Hüseynov, Gəncə şəhəri M.Əzizbəyov adına 15 nömrəli tam orta məktəbin şagirdi:* - 2004-cü il oktyabrın 12-də Gəncə şəhərində anadan olub. İlk təhsilinə 2010-cu ildə Gəncə şəhəri M.Mehdizadə adına 4 nömrəli tam orta məktəbdə başlayıb. 2016-cı, 2017-ci və 2018-ci illərdə informatika üzrə Respublika fənn olimpiadalarında iştirak edib və qızıl medal qazanıb. ABŞ-da keçirilən “Genius Olympiad”da robototexnika üzrə qızıl medala layiq görülüb. 2019-cu ildə Sloveniyada keçirilən Avropa yeniyetmələrin informatika olimpiadasından respublikamıza ilk gümüş medal gətirib. Həmin ilin noyabrında Bolqarıstanda keçirilən informatika olimpiadasında gümüş, 2020-ci ilin yanvarında Qazaxıstanda keçirilən Beynəlxalq Jautikov Olimpiadasında bürünc medallara layiq görülüb. 2020-ci ildə informatika üzrə Respublika fənn olimpiadalarında yenidən qızıl medal qazanaraq “Birincilərin birincisi” olub. Elə həmin ildə də Beynəlxalq İnformatika Olimpiadasında (İOİ) son 9 ildə, uzun aradan sonra ölkəmizə bürünc medal qazandırıb.

Ə.Hüseynov 2021-ci ildə Sinqapurda onlayn keçirilən Beynəlxalq İnformatika Olimpiadasında iştirak edərək bürünc medal qazanıb və adıçəkilən olimpiadada iki dəfə medal qazanan ilk azərbaycanlı olub.

- Builki fənn olimpiadası məsələlərin çətinliyinə görə çox gərgin keçdi, mümkün 500 baldan 399 bal toplayaraq qızıl medal qazandım və ikinci dəfə “Birincilərin birincisi” nominasiyasının qalibi oldum. Qalibləri təhsil naziri Emin Əmrullayev təbrik və təltif etdi. Onu da deyim ki, bu nailiyyətlərim ilə Cənubi Koreyanın KAIST Universitetinə tam təqaüd ilə qəbul olmuşam.

### “Gələcək hədəfim peşəkar mütəxəssis olmaqdır”

*Murad Xəlilli, Bakı şəhər 244 nömrəli tam orta məktəbin şagirdi:* - 23 may 2004-cü ildə Bakı şəhərində anadan olub. 2021-ci ildə Əsəd Ələskərov adına 244 nömrəli tam orta məktəbi qızıl nişanla başa vurub. “Əlaçı”, “Xəmsə” intellektual oyunların qalibi olub.

- Şübhəsiz ki, təhsilim dövründə uğurlarım arasında mənim üçün xüsusi əhəmiyyətə malik olanlardan biri Respublika fənn olimpiadaları olub. Uşaqlıqdan coğrafiyaya olan xüsusi marağım sayəsində təhsil aldığım müddətdə fənn biliklərimi daha da təkmilləşdirə bildim. X sinifdə coğrafiya fənni üzrə olimpiadaya qatıldım və bürünc medal qazandım. Bu il daha çox çalışaraq qızıl medal qazanmağa nail oldum, həmçinin “Birincilərin birincisi” nominasiyasına layiq görüldüm. Məktəbimin, valideynlərimin, fənni dərindən öyrənməyimə kömək olan müəllimim Xəyalə xanımın, BŞTİ-nin təşkil etdiyi “İstedad qazandır” layihəsi çərçivəsində dəstəyini əsirgəməyən Eldəniz müəllimin ümidlərini doğrultduğum üçün çox sevindim. Bu 2 il ərzində iştirakçılara xüsusi şəraitin yaradılmasında əməyi keçən hər kəsə təşəkkürümü bildirirəm. Builki müəyyən çətinliklərə baxmayaraq olimpiadanın bütün mərhələlərinin qüsursuz keçdiyini deyə bilərəm.

Gələcək hədəfim müvafiq sahələr üzrə peşəkar mütəxəssis olmaqdır. Burada əldə etdiyim təcrübələrin hədəfimə çatmaqda müəyyən rol oynayacağına inanıram.

### “Olimpiada əla təşkil olunmuşdu”

*Ayhan Süleymanzadə, Türkiyə Dəyanət Vəqfi Baki Türk liseyinin şagirdi:* - 14 iyul 2004-cü ildə Bakıda anadan olub. Paytaxtdakı 82 nömrəli tam orta məktəbə gedib. Daha sonra orta təhsilini Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyində davam etdirib. Ayhan bir sıra beynəlxalq olimpiadalarda iştirak edib, uğurlar qazanıb. Sonuncu dəfə 17-24 iyul 2021-ci il tarixlərində Litvada keçirilən Beynəlxalq Fizika Olimpiadasında bürünc medala layiq görülüb.

- VIII sinifdən başlayaraq Respublika fənn olimpiadalarında iştirak edirəm. Son 4 il ərzində fənn olimpiadalarında 2 qızıl, 1 gümüş,1 bürünc medal qazanmışam. Builki olimpiadada qızıl medalla yanaşı “Birincilərin birincisi” nominasiyasının qalibi olmuşam. Əvvəlki illərdə olduğu kimi, bu il də olimpiada əla təşkil olunmuşdu, münsiflər heyəti çox ədalətli idi. Hədəflərimə gəlincə, ali təhsilimi Cənubi Koreyanın KAIST Universitetində davam etdirəcəyəm.

### 14 medallı istedad

*Toğrul Abbasov, Fizika, riyaziyyat və informatika təmayüllü liseyin şagirdi:* - 2005-ci il iyulun 6-da Sumqayıt şəhərində anadan olub. Bir sıra nüfuzlu beynəlxalq olimpidalarda ölkəmizi uğurla təmsil edib.

- Respublika fənn olimpiadalarına hazırlıqla VII sinifdən məşğul olmağa başlamışam. Yerli olimpiadalarda 2 qızıl, 1 gümüş medal qazanmışam. Beynəlxalq olimpiadalarda 3 qızıl, 3 gümüş, 4 bürünc medala layiq görülmüşəm. Cari ilin 14-24 iyul tarixlərində isə 62-ci Beynəlxalq Riyaziyyat Olimpiadasında bütünc medal qazandım. Təhsil Nazirliyi tərəfindən Respublika fənn olimpiadalarının təşkil olunması istedadlı, bacarıqlı şagirdlərin aşkar olunmasında mühüm rol oynayır. Hədəfim gələcəkdə ən prestijli universitetlərin birində təhsilimi davam etdirməkdir.

**Oruc MUSTAFAYEV**



Əziz Hüseynov



Murad Xəlilli



Ayhan Süleymanzadə



Toğrul Abbasov